Üzeyir Hacıbəyli adına
Bakı Musiqi Akademiyası

# VƏTƏN TƏRANƏLƏRİ

## QARMON İFAÇISI
## NİZAMİ ƏSGƏROVUN
## RƏQS MELODİYALARI

Bakı - 2023

**Layihə rəhbəri:** **Fərhad BƏDƏLBƏYLİ**
*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru,*
*SSRİ və Azərbaycan Respublikasının xalq artisti, professor*

**Elmi redaktor:** **Gülnaz ABDULLAZADƏ**
*Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi,*
*fəlsəfə elmləri doktoru, professor*

**Tərtibatçı:** **Səadət VERDİYEVA**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Not yazısı:** **Rauf BƏHMƏNLİ**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** **Əkbər QOŞALI**
*Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti,*
*Beynəlxalq "Alaş" Ədəbi mükafatı laureatı*

**Elnara DADAŞOVA**
*Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, bəstəkar, professor*

**Malik QULİYEV**
*Azərbaycan Respublikasının Əməkdar müəllimi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor*

Məcmuədə Azərbaycanın tanınmış qarmon ifaçısı Nizami Əsgərovun müəllifi olduğu 12 rəqs melodiyasının not yazısı işıqlandırılmışdır. Təqdim olunan bu məcmuə 46 il peşəkar səhnədə fəaliyyət göstərmiş ifaçının zəngin yaradıcılığının kiçik bir guşəsini əks etdirən ilk topludur.

**Vətən təranələri. Qarmon ifaçısı Nizami Əsgərovun rəqs melodiyaları.**
**Bakı, "İMZA" nəşrlər evi, 2023, 32 səh.**

**İSBN 978-9952-37-440-1**

**© Nizami Əsgərov, 2023**

# ÖN SÖZ

Azərbaycan xalqı çox zəngin musiqi irsinə sahibdir. Muğam sənəti, aşıq yaradıcılığı, folklor musiqisi, professional musiqi yaradıcılığı musiqi mədəniyyətimizin əvəzsiz xəzinəsidir. Xalq musiqisinin janrlarından sayılan rəqslər bu zəngin mədəniyyətin əsas qollarından biridir. Əsrlər boyu tarixin süzgəcindən keçə-keçə, qarşısına çıxan bütün maneələri dəf edərək qərinələr adlamış, nəsildən-nəsilə ötürülərək bu günümüzədək gəlib çatmış folklor rəqslərimiz xalqın adət-ənənəsini, insanların ictimai həyat tərzini, məişətini, estetik zövqünü özündə əks etdirmişdir.

Hər bir rəqs havası müəyyən bir dövrdə, hansısa bir tarixi ərazidə və kim tərəfindənsə yaradılmışdır. Xalqın bəyəndiyi, sevərək oynadığı, hər zaman el şənliklərində, toy məclislərində səsləndirilən və əsrlərlə hafizələrdə yaşayan rəqslərin vaxt ötdükcə, nəsillər dəyişdikcə müəllifləri, yaradıcılarının kimliyi unudulmuşdur. Keçmişdə not yazısının olmaması, rəqs havalarının gələcək nəslə ötürülməsini yalnız şifahi ənənəyə əsaslanan ustaddan tələbəsinə öyrədilməsilə məhdudlaşdırırdı. Nəticədə nəinki müəlliflərin kimliyi, hətta yüzlərlə rəqs melodiyalarımız unudulmuş, tamamilə hafizələrdən silinmişdir.

Məlumdur ki, xalq musiqisinin toplanması, öyrənilməsi və nota alınması XX əsrin əvvəllərində dahi bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən başlanmışdır. Üzeyir bəyin təməlini qoyduğu bu ənənə bu gün də şərəflə davam etdirilməkdədir. Lakin bir məsələni vurğulamaq lazımdır ki, uzun illər “xalq rəqsləri” və ya “oyun havaları” adı ilə nəşr olunmuş bir çox not məcmuələrində rəqslərin müəllifləri haqqında məlumat verilmədiyindən, bu melodiyalar sahibsiz qalmış, onların yaradıcıları da unudulmuşdur. XX əsrin ortalarından başlayaraq belə faktları nəzərə alan bəstəkarlar, musiqişünaslar, tədqiqatçılar hər bir rəqs melodiyasının nə zaman, hansı bölgədən və kimin ifasından (musiqiçi haqqında məlumat) yazıldığını qeyd etmişlər.

Rəqs havaları çox zaman instrumental ifaçılar tərəfindən yaradılır. Bəstəkarlıq qabiliyyəti olan, rəqs janrının quruluşunu, nəzəri əsaslarını bilən, eləcə də muğam sənətinə bələd olan istedadlı musiqiçilər hər bir dövrdə olmuş və bu gün də çoxluq təşkil edir. Onların arasında elə ifaçılar olub ki, yaratdıqları hər bir melodiya qəlbləri fəth edib, xalq sevgisi qazanıb, digər musiqiçilərin repertuarını bəzəyib. Belə ifaçılardan Əhəd Əliyev, Qurban Pirimov, Əli Kərimov, Teyyub Dəmirov, Bəhruz Zeynalov, Həsrət Hüseynov, Məmmədağa Ağayev, Həsən Məhərrəmov, İzzətəli Zülfüqarov, Həmid Haqverdiyev, Ələkbər Əsgərov,

Ələfsər Rəhimov, Avtandil İsrafilov, Fərhad Hüseynov, Abutalıb Sadığov, Adil Bayramov və başqalarının adını çəkə bilərik.

Melodiyaları nota yazılmış belə ifaçılar haqqında bəzi məcmuələr işıq üzü görmüşdür. İlk dəfə 1954-cü ildə Azərbaycan Dövlət Musiqi Nəşriyyatında çapdan çıxmış "Müasir Azərbaycan xalq rəqsləri" adlı məcmuədə bəstəkar Rauf Hacıyevin tanınmış zurna ifaçısı Əli Kərimovun çalğısından nota aldığı "Sünbülü" və "Yarış" rəqs melodiyaları işıqlandırılmışdır.

1960-cı ildə Azərbaycan Dövlət Musiqi Nəşriyyatında çapdan çıxmış "10 rəqs" adlı məcmuədə tanınmış qarmon ifaçısı Məmmədağa Ağayevin müəllifi olduğu melodiyalar bəstəkar Tofiq Quliyev tərəfindən nota alınmış və fortepiano üçün işlənmişdir. Digər bir məşhur qarmon ifaçısı Teyyub Dəmirovun melodiyalarından ibarət "Rənglər və rəqslər" adlı məcmuə 1961-ci ildə nəşr edilmişdir. Topludakı melodiyalar Rafiq Rüstəmov tərəfindən nota yazılmışdır. Digər məcmuə – 2018-ci ildə nəşr olunmuş "Ələkbər Əsgərovun rəqs melodiyaları və muğam rəngləri"dir. Məcmuəyə daxil edilmiş melodiyalar sənətçinin qızı Mahirə Ələkbərqızı tərəfindən nota alınmışdır. Sonuncu belə məcmuə İlqar (Cəmiloğlu) Əli İmamverdinin 2021-ci ildə Türkiyədə nəşr etdirdiyi "Avtandil İsrafilovun 26 rəqs havaları"dır. Məcmuədə təqdim edilmiş melodiyalar İ.Cəmiloğlu tərəfindən nota yazılmışdır.

Öz mükəmməl çalğısı ilə xalq sevgisini qazanmış ustad ifaçılardan biri də Nizami Əsgərovdur. Təqdim etdiyimiz məcmuəyə ifaçının bəstələdiyi rəqs havalarından 12-ci daxil edilmişdir. Melodiyaların fərqli məqam xüsusiyyətləri, bir-birindən bənzərsiz musiqi dili müəllifin rəqs janrına dərindən bələd olduğunu təsdiqləyir.

İnanırıq ki, bu məcmuədəki rəqs melodiyaları yaxın zaman ərzində xalqın qəlbinə yol tapacaq, onların sevimli oyun havalarına çevriləcəkdir.

Hesab edirik ki, bu toplu gələcəkdə qarmon ifaçıları ilə yanaşı rəqs janrının tədris olunduğu bütün təhsil ocaqlarının tələbələri, eləcə də rəqs havalarını araşdıran musiqişünas-tədqiqatçılar üçün lazımlı mənbə olacaqdır.

Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi,
fəlsəfə elmləri doktoru, professor
**Gülnaz ABDULLAZADƏ**

# USTAD QARMON İFAÇISI NİZAMİ ƏSGƏROV

Azərbaycanın tanınmış qarmon ifaçısı Əsgərov Nizami Cərulla oğlu 1957-ci ildə Bakı şəhərində anadan olmuşdur. İlk qarmon təhsilini (1968-1973) Y.Qaqarin adına "Pionerlər Sarayı"nda almış sənətçi oxuduğu tədris ocağında fəaliyyət göstərən "Cücələrim" rəqs ansamblının tərkibində ifaçı kimi də iştirak etmişdir.

İlk professional səhnədə 1977-ci ildən, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında fəaliyyət göstərən "Azərbaycan Dövlət Rəqs Ansamblı"nın tərkibində qarmon ifaçısı kimi başlamışdır. 1982-ci ilə kimi bu kollektivdə çalışan N.Əsgərov o zaman kollektivə rəhbərlik etmiş SSRİ xalq artisti, tanınmış xoreoqraf-rəqqasə Leyla Vəkilovadan rəqs sənətinin incəliklərinə, rəqsin müşayiətindəki ifaçılıq xüsusiyyətlərinə yiyələnmişdir.

Qarmon alətinə vurğun olan gənc musiqiçi öz ifaçılıq səviyyəsini, Musiqi elminə dair biliklərini daha da artırmaq məqsədilə 1978–1983-cü illərdə M.Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunda (indiki ADMİU) təhsilini davam etdirmişdir.

1982-ci ildən Aşıq Ələsgər adına "Mədəniyyət Sarayı"nda qarmon müəllimi kimi fəaliyyətə başlayan sənətçi 1991-ci ildə "Qopuz İncəsənət Mərkəzi"ndə Musiqi şöbəsinin müdiri və həmin mərkəzdə fəaliyyət göstərən "Dədə Qorqud" folklor ansamblının musiqi rəhbəri kimi çalışmışdır.

Müəllim kimi fəaliyyətini 1993-cü ildə Bakı Xoreoqrafiya Məktəbində (indiki Bakı Xoreoqrafiya Akademiyası), daha sonra, 1995-ci ildən bəri Azərbaycan Milli Konservatoriyasının nəzdindəki İncəsənət Gimnaziyasında davam etdirən N.Əsgərov yeni musiqiçi nəslinin formalaşmasında, ifaçılıq sənətinin inkişafında bir ustad kimi öz bəhrəsini verməkdədir.

Sənətçinin ifaçılıq yolunu bəyənənlər, çalğısında istifadə etdiyi özünəməxsus melizmlərə (bəzklər), müəyyən ştrixlərə, texniki xırdalıqlara maraq göstərən gənc musiqiçilər, Nizamisevərlər onu radio dalğalarında, televiziya kanallarında, toy şənliklərində izləməklə yanaşı, müxtəlif illərdə ayrı-ayrı studiya-şirkətlər tərəfindən buraxılmış kompakt-kassetlər, audio-disklər və video-albomlarda da dinləmişlər. 2000-ci ildən bəri ustad ifaçının "Odlar yurdu", "Musiqi çələngi", "Azərbaycan milli oyun havaları", "Azərbaycan təranələri", "İlkin", "Köhnə Bakı", "Azad bir quş", "Konsert", "Qədim rəqs" və s. musiqi albomları öz istəkli dinləyicisini tapmışdır.

Nizami Əsgərovun füsunkar ifası onu Azərbaycan ifaçılıq sənətində adları fəxrlə çəkilən bir çox xanəndə və müğənnilərlə yaxınlaşdırmışdır. Yaqub

Məmmədov, Sabir Mirzəyev, Qulu Əsgərov, Nəzakət Məmmədova, Baba Mahmudoğlu, Əlibaba Məmmədov, Ağaxan Abdullayev, Arif Babayev, Süleyman Abdullayev, Səkinə İsmayılova, Alim Qasımov, Məmmədbağır Bağırzadə, Nisə Qasımova Mənsum İbrahimov, Könül Xasıyeva, Kəmalə Rəhimli, Mələkxanım Əyyubova, Zabit Nəbizadə və digər ifaçıları dəfələrlə müşayiət etmiş N.Əsgərov onlarla birgə istər xarici ölkələrdəki qastrol səfərlərində, istərsə də, müxtəlif dövlət tədbirlərində, televiziya kanallarında, bayram və el şənliklərində eyni səhnəni bölüşmüş, xalqın sevgisini qazanmışdır.

Ustad qarmon ifaçısının muğam dəstgahlarımızdan qaynaqlanan, xalq ruhunda səsləndirdiyi əzəmətli, mükəmməl çalğısı digər sənətçilər kimi dünyaşöhrətli müğənni, SSRİ və Azərbaycanın xalq artisti Zeynəb Xanlarovanın da diqqətini cəlb etmişdir. 1997-ci ildə Zeynəb xanımın dəvətini qəbul edərək, onun rəhbərlik etdiyi ansamblda qarmon ifaçısı kimi fəaliyyətə başlayan sənətkar həmin kollektivlə bu günə kimi dünyanın 20-dən çox ölkəsində qastrol səfərlərirndə olmuş, Azərbaycan İncəsənətini tərənnüm etmiş, milli musiqimizin qüdrətini dünya xalqlarına tanıtmışdır.

## NİZAMİ ƏSGƏROV YARADICILIĞININ NAİLİYYƏTLƏRİ

| | |
|---|---|
| 1977-ci il | Moskva şəhərində keçirilən "Ümumittifaq Xalq Nailiyyətləri Sərgisi"nə həsr olunmuş Festivalda "Ümumittifaq müsabiqələr laureatı" adına layiq görülüb, medalla təltif edilib. |
| 1978-ci il | Tbilisi şəhərində keçirilən "Zaqafqaziya festivalı"nda "Diplom"la təltif olunub. |
| 1980-ci il | Moskvada keçirilən "Ümumdünya Yay Olimpiadası"n-da bədii proqramlar üzrə "Diplom"la təltif edilib. |
| 1981-ci il | Moskva şəhərində keçirilən "Nizami Gəncəvinin anadan olmasının 840-illik yubileyi" tədbirində mükafata layiq görülüb. |
| 1982-ci il | Azərbaycan Respublikası Ali Soveti tərəfindən "Ali Sovetə Seçkilər"də fəal iştirakına görə "Fəxri fərman" və "Təşəkkürnamə" ilə təltif olunub. |
| 1984-cü il | Polşa şəhərində keçirilən "Beynəlxalq Folklor Festivalı"nda mükafata layiq görülüb. |
| 1989-cu il | Bolqarıstanın Sofiya şəhərində keçirilən "Dünya xalqlarının rəqsləri" festivalında diplom və mükafatla təltif edilib. |
| 1989-cu il | Yaradıcılığına həsr olunmuş "Pillə" adlı sənədli film çəkilib. |
| 1992-ci il | Türkiyənin Bursa şəhərində keçirilən "Ümumdünya Folklor Festivalı"nda "Diplom"la təltif olunub. |
| 1992-ci il | Kuzey Kıbrıs Türk Cümhuriyyetinin (Kipr) Lefkoşa, Girnə və Famoqusta şəhərlərində keçirilən "Ümumdünya Folklor Festivalı"nda "Diplom"la təltif edilib. |

| | |
|---|---|
| 1994-cü il | İran İslam Respublikasının Təbriz şəhərində “İrşad İslam Təşkilatı”nın rəhbərliyi ilə musiqi məktəblərində “Ustad dərsləri”ni keçirib. |
| 1996-cı il | Türkiyənin Silivka şəhərində keçirilən “Türkdilli xalqların Ortaq Mədəniyyəti” festivalında “Diplom”la təltif olunub. |
| 2000-ci il | Türkiyənin Bilecik şəhərində keçirilən “Osmanlı Dövlətinin 700-illik Yubiley” tədbirində “Diplom”la təltif edilib. |
| 2001-ci il | Türkiyənin İstambul şəhərində keçirilən “Beynəlxalq Uşaqlar günü” festivalında “Diplom”la təltif olunub. |
| 2001-ci il | İraqın Bağdad şəhərində keçirilən “Beynəlxalq Babilistan Festivalı”nda “Diplom”la təltif edilib. |
| 2012-ci il | Kuzey Kıbrıs Türk Cümhuriyyeti (Kipr) “Doğu Akdeniz Üniversitesi”ndə keçirilən “Azərbaycan Respublika günü”nə həsr olunmuş tədbirdə “Diplom”la təltif olunub. |
| 2013-cü il | Azərbaycan Kütləvi İnformasiya Vasitələri Həmkarlar Təşkilatı tərəfindən Mədəniyyət və İncəsənət sahəsindəki xidmətlərinə görə “Ustad sənətkar” adına layiq görülüb. |
| 2013-cü il | Yaradıcılığına həsr edilmiş “Zirvədə görüş” adlı sənədli film çəkilib. |
| 2017-ci il | Dağıstan Respublikasının Dərbənd şəhərində keçirilən “Əziz Əliyevin 120-illik Yubileyi”nə həsr olunmuş tədbirdə “Dostluq diplomu” ilə təltif edilib. |
| 2017-ci il | “Cahan” İdman Klubu İctimai Birliyinə “Musiqi” şöbəsinin müdiri təyin olunub (bu günə kimi). |
| 2021-ci il | Yaradıcılığına həsr olunmuş “Xəzərin sahilində” adlı sənədli film çəkilib. |

# 1. DAĞLILAR





## 2. SƏDƏFİ



## 3. ABŞERON YALLISI

I



II



# 4. BUTA





# 5. XIZI



# 6. AFAQI




tr
1.
2.

# 7. PAYIZ AXŞAMI




tr

## 8. FATİMƏ



## 9. İLKİNİ




tr
1.
2.

# 10. QƏLƏBƏ RƏQSİ



## 11. ÇAYLILAR




tr
CODA

## 12. İSTİSU




tr♭
tr♭

## RƏQSLƏR HAQQINA

**№1. Dağlılar** – rəqs havasını müəllif 1995-ci ildə bəstələmişdir. Rəqsə yaşı dördminillik tarixə aid edilən Oğuz köklərindən formalaşmış türk tayfasının adı verilmişdir. Tanınmış tarixçi-etnoqraf Rəfail Salman oğlu Mustafayevin "Xızı-Siyəzən bölgəsinin tarixinə dair: arxeoloji-etnoqrafik tədqiqat" kitabında "dağlı" sözünün mənşəyi haqqında geniş məlumat açıqlanmışdır.

Rəqsin nota alınmış melodiyası məcmuədə "do" mayəli Çahargah məqamında, 6/8 və 3/4 vəzn ölçülərində, *"presto"* tempində təqdim edilmişdir.

**№2. Sədəfi** – rəqs havası müəllif tərəfindən 2015-ci ildə yaradılmışdır. Sənətçi bu melodiyanı anası Sədəf xanımın (Ağayeva Sədəf Qardaşəli qızı) əziz xatirəsinə ithaf etmişdir.

Məcmuədə təqdim olunmuş rərsin musiqisi "mi" mayəli Segah məqamında, 6/8 və 3/4 vəzn ölçülərində, *"allegro"* tempində nota yazılmışdır.

**№3. Abşeron yallısı** – müəllifin 2000-ci ildə "yallı" janrında bəstələdiyi ikihissəli rəqs melodiyasıdır. Abşeron – Azərbaycan Respublikasının geniş inzibati əraziyə malik rayonlarından biridir. Sənətçi rəqs havasına bu tarixi ərazinin adını vermişdir.

Məcmuədə "fa" mayəli Rast məqamında nota alınmış yallının birinci hissəsi 2/4 ölçüdə, *"moderato"* tempində, ikinci hissəsi isə 6/8 vəzn ölçüsündə, *"vivo"* tempində təqdim olunmuşdur.

**№4. Buta** – rəqs havasını müəllif 2021-ci ildə bəstələmişdir. Sənətçi bu melodiyanı xalası Buta xanımın əziz xatirəsinə ithaf etmiş, rəqsə onun adını vermişdir.

Rəqsin musiqisi "lya" mayəli Bayatı-Şiraz məqamında, 6/8 və 3/4 vəzn ölçülərində, *"allegro"* tempində nota yazılmışdır.

**№5. Xızı** – müəllifin 1989-cu ildə yaratdığı ilk rəqs melodiyasıdır. Sənətçinin ata-baba yurdu Xızı rayonu (Bəyəhmədyurd kəndi) olduğundan, rəqs havasına bu tarixi ərazinin adı verilmişdir.

Məcmuədə rəqsin not yazısı "mi" mayəli Segah məqamında, 6/8 ölçüdə, *"vivo"* tempində təqdim edilmişdir.

**№6. Afaqı** – sənətçi 2000-ci ildə bəstələdiyi bu rəqs havasını qızı Afaq xanıma hər etmişdir. Rəqsin musiqisi "mi" mayəli Segah məqamında, 6/8 və 3/4 vəzn ölçülərində, *"allegro"* tempində nota yazılmışdır.

**№7. Payız axşamı** – rəqs melodiyası müəllif tərəfindən 2022-ci ildə yaradılmışdır. Payız fəslinin təbiət gözəlliyindən, gəncliyin aşıb-daşan sevgisindən, insana həzinlik, sakitlik gətirən duyğuların təsirindən ilhama gəlmiş sənətçi bu havanı "Payız axşamı" adlandırmışdır.

Rəqsin nota alınmış melodiyası məcmuədə "mi" mayəli Bayatı-Şiraz məqamında, 6/8 ölçüdə, *"allegro"* tempində təqdim olunmuşdur.

**№8. Fatimə** – 2012-ci ildə bəstələdiyi bu rəqs havasını müəllif nəvəsinə həsr edərək – "Fatimə" adlandırmışdır.

Rəqsin melodiyası "lya" mayəli Bayatı-Şiraz məqamında, 6/8 ölçüdə, *"allegro"* tempində nota yazılmışdır.

**№9. İlkini** – İlk dəfə nəvə sevincini yaşayan müəllif 2000-ci ildə yaratdığı bu rəqs havasını, məhz ona həsr edərək "İlkini" adlandırmışdır.

Rəqsin musiqisi "mi" mayəli Bayatı-Şiraz məqamında, 6/8 və 3/4 vəzn ölçülərində, *"allegro"* tempində nota yazılmışdır.

**№10. Qələbə rəqsi** – Müəllif 2020-ci ildə bəstələdiyi bu rəqs melodiyasını uzun illər işğal altında qalmış torpaqlarımızın azad olunmasında Azərbaycan Silahlı Qüvvələrinin, başda cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsindəki şanlı qələbəsinə həsr etmişdir.

Məcmuədə təqdim olunmuş rərsin melodiyası "fa" mayəli Şüştər məqamında, 6/8 ölçüdə, *"vivo"* tempində nota alınmışdır.

**№11. Çaylılar** – rəqs havasını müəllif 2023-cü ildə yaratmışdır. Rəqs Abşeronun qədim kəndlərindən sayılan Çaylı sakinlərinə həsr olunmuşdur. Qeyd etməliyik ki, Çaylı kəndinin adı sonradan dəyişdirilərək Pirəkəşkül adlandırılıb.

Rəqsin melodiyası "sol" mayəli Çahargah məqamında, 6/8 ölçüdə, *"allegro"* tempində nota alınmışdır.

**№12. İstisu** – 2023-cü ildə bəstələdiyi bu rəqs havasını müəllif Kəlbəcər rayonunun işğaldan azad olunması şərəfinə həmin tarixi ərazidə yerləşən, hələ 1138-ci ildə güclü zəlzələ zamanı yerin qabarması nəticəsində yaranmış çox qiymətli və müalicəvi mineral bulaq sayılan İstisuya həsr etmişdir.

Rəqsin not yazısı məcmuədə "re" mayəli Şur məqamında, 6/8 ölçüdə, *"vivo"* tempində təqdim edilmişdir.

## MÜNDƏRİCAT


ÖN SÖZ ........ 3

USTAD QARMON İFAÇISI NİZAMİ ƏSGƏROV ........ 5

NİZAMİ ƏSGƏROV YARADICILIĞININ NAİLİYYƏTLƏRİ ........ 7

1. DAĞLILAR ........ 9

2. SƏDƏFİ ........ 11

3. ABŞERON YALLISI ........ 12

4. BUTA ........ 14

5. XIZI ........ 16

6. AFAQI ........ 17

7. PAYIZ AXŞAMI ........ 19

8. FATİMƏ ........ 21

9. İLKİNİ ........ 22

10. QƏLƏBƏ RƏQSİ ........ 24

11. ÇAYLILAR ........ 25

12. İSTİSU ........ 27

RƏQSLƏR HAQQINDA ........ 29

# Nizami Əsgərov

# “Vətən təranələri”


**Direktor:** **Səbuhi Aslan**

**Dizayner:** **Veys Əliyev**

**Texniki redaktor:** **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 01. 08. 2023

Ofset çapı. Əla növ kağız

Tiraj: 100

Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə

Telefon: (012) 538-18-87,

(050) 263-16-16; (055) 263-16-17

email: imza_nesrler_evi@mail. ru